**Müəllimin səlahiyyətinin təsdiqlənməsi, iyul, 2023.**

# Azərbaycan dili üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.
Testin maksimal balı 70-dir.
Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

**Növbəti səhifəyə keçmək və geri qayıtmaq üçün klaviaturanın üzərində ox işarələri olan klavişlərindən istifadə edə bilərsiniz.**

***Sizə uğurlar arzulayırıq!***

# AZƏRBAYCAN DİLİ (35 BAL)

(1) **1.** **Vurğusu birinci sözün üzərinə düşən mürəkkəb sözlər cərgəsini müəyyən edin.**

A) Ağdaş, Ağdam, dünyagörüşü, qızılgül.

B) əliəyri, qarayaxa, başısoyuq, sözübütöv.

C) otbiçən, qaragöz, bəstəboy, uzunsaç.

D) ağacdələn, ayaqaltı, çoxillik, birtərəfli.

(1) **2. Hansı söz *səhv* yazılmışdır?**

A) kulminasiya.

B) külüng.

C) tövsiyyə.

D) üzrlü.

(1) **3. Hansı cərgədəki mürəkkəb adlar *səhv* yazılmışdır?**

A) Azərbaycan Dövlət nəşriyyatı, Şəhidlər Xiyabanı.

B) Azərbaycan Milli Elmlər Akademiyası, Mərkəzi Seçki Komissiyası.

C) “İstiqlal” ordeni, Orxon-Yenisey abidələri.

D) Sakit okean, Bakı Şəhər İcra Hakimiyyəti.

(1) **4. Sadalanan xüsusiyyətlərdən hansı həm antonimlərə, həm də çoxmənalı sözlərə aiddir?**

A) birdən çox məna bildirmək.

B) eyni nitq hissəsinə aid olmaq.

C) əks mənalı şəkilçilərlə düzəlmək.

D) müxtəlif fonetik tərkibə malik olmaq.

(1) **5. Frazeoloji birləşmə haqqındakı fikirlərdən hansı *səhvdir?***

A) Bütövlükdə bir leksik mənanı bildirir.

B) Omonim, sinonim, antonim xüsusiyyətinə malik olur.

C) Tərəfləri sintaktik təhlil zamanı parçalanır.

D) Tərkibindəki sözlər birlikdə bir məcazi məna ifadə edir.

(1) **6. Toplu isimlərdən hansı cəm şəkilçisi ilə işlənə *bilmir?***

A) Camaat.

B) İlxı.

C) Kütlə.

D) Xalq.

(1) **7.** *“Yollar bağlandığına görə Cəfərqulu kişi dağlar qoynundakı doğma yurduna həsrət qalıb.”* **cümləsinin sintaktik təhlilindəki *səhvi* göstərin.**

A) Cəfərqulu kişi – mürəkkəb mübtədadır.

B) dağlar qoynundakı – yer zərfliyidir.

C) doğma – təyindir.

D) həsrət qalıb – feili xəbərdir.

(1) **8.** *“Dan ulduzu üfüqdən boylananda karvan şərqə doğru yola düşdü”* **cümləsindəki feili birləşmənin sintaktik vəzifəsini müəyyənləşdirin.**

A) məqsəd zərfliyi.

B) səbəb zərfliyi.

C) tərzi-hərəkət zərfliyi.

D) zaman zərfliyi.

(1) **9. Sadalanan xüsusiyyətlərdən hansı rəsmi-işgüzar üslub üçün səciyyəvidir?**

A) alliterasiya, assonans və intonasiya.

B) sözlərin terminoloji mənada işlənməsi.

C) standart forma və şablonlardan istifadə.

D) ümumişlək sözlərdən daha çox istifadə.

(1) **10. Nümunədə hansı durğu işarələri buraxılmışdır?**

*Kişilər də qadınlar da uşaqlar da hamı stansiyanın açılışına toplaşmışdı.*

A) iki vergül, qoşa nöqtə.

B) iki vergül, tire.

C) qoşa nöqtə, tire, vergül.

D) üç vergül, qoşa nöqtə.

(2) **11.** **Şagird yazdı:** *Şuşa, Laçına, Qubadlı və Zəngilana yeni yollar çəkilir.*

Şagird cümlədə hansı səhvə yol vermişdir?

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **12. Şagird yazdı:** *Mən sənə xidmət etməyi özümə müqəddəs borc bilirəm Vətən!*

Şagird tərəfindən buraxılan səhvi düzəldin.

Bənzər səhvi etməmək üçün şagirdə nəyi bilməyin vacib olduğunu açıqlayın.

(4) **13. Sizin məqsədiniz həmcins üzvlü cümlələrdə mübtədalarla xəbərin uzlaşmasını şagirdlərə izah etməkdir.**

**I –** Müxtəlif şəxslərdə olan həmcins mübtədalardan biri I şəxsdə olduqda xəbər neçənci şəxsdə olur? Cavabınızı nümunə ilə əsaslandırın.

**II –** Həmcins mübtədalar II və III şəxslərdə olarsa, xəbər neçənci şəxsdə olur? Cavabınızı nümunə ilə əsaslandırın.

(7) **14. “Ən böyük dövlət” adlı şifahi xalq ədəbiyyatı nümunəsini oxuyun:**

Bir kişi dəniz sahilində gəzirdi. O, uzaqda balaca bir uşağın yerdən nəsə götürüb dənizə atdığının şahidi oldu. Yaxınlaşanda gördü ki, bütün sahil balaca balıqlarla doludur. Yəqin ki, səhərki güclü külək onları sahilə – nəm qumun üstünə çıxarmışdı. Həmin uşaq da bir-bir balıqları götürüb dənizə atırdı.

Amma bütün sahil balıqla dolu idi. Bunu görən kişi uşağa dedi:

– Niyə bu balıqları suya atırsan?

Uşaq cavab verdi:

– Səhər güclü dalğalar onları sahilə atıb. İndi isə dəniz sakitdir. Əgər onları suya atmasam, öləcəklər.

Kişi təəccüblə dedi:

– Bir ətrafına bax. Burda minlərlə balıq var. Sənin əziyyətin heç nəyi dəyişməyəcək.

Uşaq əyilib yerdən bir balıq götürdü və onu dənizə tulladı. Sonra da kişiyə dönüb dedi:
– Bax, mənim əziyyətim o balıq üçün hər şeyi dəyişdi.

**I –** Mətndə ifadə olunan əsas fikir nədir?

**II –** Mətndə təqdim olunan fikri dəstəkləmək və ya inkar etmək üçün arqument gətirin.

**III –** Mətnə əsaslanmaqla hansı arqumentin daha çox qəbul olunduğunu və səbəbini qeyd edin.

*Yerinə yetirdiyiniz tapşırıqda dil səhvi və ya stilistik qüsur buraxılmış olsa bir (1) balınız azalacaq.*

(10) **15. Şagirdin yazı işini oxuyun və aşağıdakı göstərişləri yerinə yetirin:**

**I –** Şagirdin yazı işinə I kriteriyaya əsasən müvafiq bal yazın və mətndən müvafiq nümunə gətirin.

**II –** Şagirdin yazı işinə II kriteriyaya əsasən müvafiq bal yazın və mətndən müvafiq nümunə gətirin.

**III – 1.** Şagirdin yazı işinə III kriteriyaya əsasən müvafiq bal yazın və mətndən müvafiq nümunələr gətirin.

**2.** Hər bir səhv növünü (orfoqrafik, morfoloji, punktual və ya sintaktik) müəyyən edin.

## Qiymətləndirmə sxemi

| *N* | *Meyarlar* | *Meyarların tərifi* | *Ballar* |
|---|---|---|---|
| **I** | Düşüncəni əsaslandırma (arqumentasiya və sitat) | a) Müzakirə aydındır, arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanır;<br>b) Müzakirə müəyyən qədər arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanmır və faktiki səhvlər buraxılıb;<br>c) Mətn qeyri-adekvatik anlaşılıb, müzakirə inandırıcı deyil, nümunələr qeyri-adekvatik olaraq istinad edilib. | 2<br>1<br>0 |
| **II** | Leksika və üslub | a) Fikir dəqiq və aydındır, yazı üslubu düzgündür;<br>b) Fikir düzgündür, ancaq söz bazası azdır və ya stilistik səhvlər var;<br>c) Əsas fikir aydındır, ancaq yazının üslubu düzgün deyil, qeyri-adekvatik sözlər var. | 2<br>1<br>0 |
| **III** | Orfoqrafiya, morfologiya, sintaksis və punktuasiya | a) Bu cür səhvlər üçdən çox deyil;<br>b) Bu cür səhvlər altıdan çox deyil;<br>c) Bu cür səhvlər altıdan çoxdur. | 2<br>1<br>0 |

**Şagird üçün təklif olunan tapşırıq:**

Çox işləmək, çox güc sərf etmək hələ çox uğur qazanmaq demək deyil.

*Arqumentli düşüncə ilə bu fikri inkar edin və ya onunla razılaşın.*

**Şagirdin yazısı:**

Günlərin bir günü iki odunçu meşədə ağac kəsirdi. Onlardan biri ağac kəsməyə səhər tezdən, hamıdan əvvəl başlayırdı. O, dayanmadan işləyir, dincəlmir, hətda günorta yeməyinə belə çox az vaxt ayırırdı. Digər odunçu axşam olanda evinə getsə də, o, kəsim işinə ara vermir, gecəyə qədər işləyirdi. Onun çoxlu ağac kəsib yığmaqdan başqa fikiri yox idi.

O, biri odunçu isə arabir dincəlir, günorta oldumu, qarnını doyururdu. Axşam olan kimi də evinə gedib dincəlirdi.

Beləcə, bir neçə gün keçdi. Onlar işi başa vurdular. Nəhayət, kəsdikləri odunları ayrı-ayrı üst-üstə qaladılar. Nəticəyə baxıb hər ikisi də təəccübləndilər. İkinci odunçunun doğradığı odunlar gecə-gündüz işləyən odunçunun kəsdiklərindən ikiqat çox idi.

Çox işləyən odunçu təəccüblə:

– Başa düşmürəm, bu, necə ola bilər?! – dedi. – Axı, mən səndən daha çox işləyirdim. Hətta gecəyə qədər qalıb odun doğrayırdım.

O biri odunçu təbəssüm edib dedi:

– Əslində, düz deyirsən. Sən bütün günü dayanmadan işləyirdin. Çox ağaclar kəsib-doğramaqdan başqa heç nə fikirləşmirdin. Mən isə arabir dincəlirdim. Dincəldiyim vaxtda da baltamı itiləyirdim, daha səmərəli işləmək üçün güc yığırdım. Çünki bilirdim ki, daha çox ağac kəsə bilmək üçün baltamı tez-tez itiləməliyəm. Arabir dincəlib güc yığışdırmalıyam. Balta iti oldumu, az əməklə çox iş görmək mümkün olur.

# AZƏRBAYCAN ƏDƏBİYYATI (20 BAL)

(1) **16. Şagird soruşdu:** *"Y. V. Çəmənzəminlinin "Zeybək qızı" əsərində "Qadınlar Türkiyəni qurtaracaqlar" düşüncəsinə əsas verən nədir?"*

*Müəllim şagirdin sualını cavablandırmaq üçün nəyə əsaslanmalıdır?*

Qadının:

1. ailədəki roluna.
2. xalqın maariflənməsindəki roluna.
3. müharibədəki roluna.
4. təsərrüfatdakı roluna.

A) 2, 4.

B) 3, 4.

C) 1, 2.

D) 1, 3.

(1) **17. Elçinin "Talvar" hekayəsindəki Əliabbas kişi obrazını təhlil edərkən şagirdə bu obrazla bağlı hansı fikirlərin çatdırılması doğrudur?**

1. Qocalsa da, zəhmət çəkmədən yaşamaqla barışa bilmir.

2. Onu keçmişə bağlayan hər bir şeyə dəyər verir.

3. Ömrünü kölgəsində keçirdiyi tut ağacının parçalanması onu sarsıdır.

4. Satacağı alətlərdən qazanacağı pulla məhəllədə talvar tikmək niyyətindədir.

5. Dülgər alətlərinin ondan sonra da xeyir verməsini təmin etməyi düşünür.

A) 2, 3, 4.

B) 1, 2, 5.

C) 1, 3, 4.

D) 2, 4, 5.

(1) **18. E.Heminqueyin “Qoca və dəniz” povestinin ideyasını şagirdə çatdırmaq üçün hansı fikirdən istifadə edilməlidir?**

A) Böyük mənəvi güc, qüdrət tələb edən mübarizə uğurun əsasıdır.

B) Gəncliyində məşhur balıqçı kimi tanınmış qocanın uğursuzluğa düçar olması kədərlidir.

C) İnsanların qocanı gülüş hədəfinə çevirmələri yolverilməzdir.

D) Köpəkbalıqlarının hücumu qocanın ovu üçün əsl maneədir.

(1) **19. Verilmiş nümunənin forma xüsusiyyətlərini şagirdə izah edərkən hansı fikirlərin doğru olduğunu söyləmək mümkündür?**

*Dilbər, neyləmişəm, nədir günahım,*

*Baxar mənə özgə sayaq gözlərin.*

*Bir quru qəfəsəm, yetişən kimi*

*Alıbdı canımı bayaq gözlərin.*

1. Əruz vəznindədir.
2. Qoşmanın ilk bəndidir.
3. İkinci misrada metafor işlənmişdir.
4. Təşbeh və mübaliğədən istifadə olunmuşdur.
5. Tərənnüm əsasında yazılmışdır.

A) 2, 4.

B) 1, 3, 5.

C) 1, 2.

D) 2, 3, 4.

(1) **20. Şagird soruşdu:** *“S.S.Axundovun “Nurəddin” əsərində insan təbiətindəki azğınlığın səbəbi nədir?”*

*Müəllim şagirdin sualını cavablandırmaq üçün fikrini nə ilə əsaslandırmalıdır?*

A) Zəngin ailədə böyümənin verdiyi üstünlüklərlə.

B) Tərbiyənin düzgün qurulmaması ilə.

C) Dostların mənfi təsiri ilə.

D) Təhsil imkanından məhrum olmaqla.

(1) **21. Mir Cəlalın “Açıq kitab” romanının tədrisi zamanı Gəldiyev obrazının təhlili ilə bağlı hansı fikirlərdən istifadə müəllimə faydalı ola bilər?**

1. Əsl mənəvi simasını ətrafdakılardan gizlətməyə çalışır.

2. Vəzifədə yüksəlmək üçün rüşvət verməkdən çəkinmir.

3. Fəal, yaradıcı gənclərin taleyi ilə yaxından maraqlanır.

4. Tələbə qızları tora salmaq üçün hər cür mənəviyyatsızlığa əl atır.

5. Vahidə iftira atmaq üçün planlar  qurur.

A) 2, 3, 5.

B) 1, 3, 4.

C) 1, 4, 5.

D) 1, 2, 4.

(1) **22. Ə. Cavadın "Səsli qız" əsərinin tədrisi zamanı şagirdə əsərin məzmunu ilə bağlı hansı doğru fikirləri söyləmək olar?**

1. Əliqanlı hökmdar işğal etdiyi ölkəni yas içində görmək istəmir.
2. Düşməndən azad olmuş ölkədə bu azadlıqlardan varlılar bəhrələnirlər.
3. Ölkənin məğlub hökmdarı həqarətə dözməyib özünü öldürür.
4. Əhali yeni hökmdarın tələblərinə boyun əymək məcburiyyətində qalır.
5. Müsəlman din xadimləri keşişlərin onlara rəhbərliyinə qarşı çıxırlar.

A) 1, 2, 3.

B) 4, 5.

C) 1, 2, 4.

D) 1, 5.

(1) 23. **Q. İlkinin “İntiqam” əsərinin tədrisi zamanı Xəzangül obrazını səciyyələndirərkən hansı fikirlərdən istifadə etmək mümkündür?**

1. Ən qəddar düşmənin də belə vəhşilik törətməyə qadir olduğuna inana bilmir.
2. Onu çətin vəziyyətdə qoyub gedən qonşularını lənətləyir.
3. Öz həyatı bahasına körpəsini ermənilərdən xilas etməyə nail olur.
4. Sağ qalmaq üçün dəhşətli bir seçimlə üzləşdikdə bir an belə tərəddüd etmir.

A) 1, 3.

B) 1, 4.

C) 2, 3.

D) 3, 4.

(1) **24. “M. Füzulinin “Leyli və Məcnun“ əsərinin tədrisi zamanı hansı fikirlərdən istifadə etmək mümkündür?**

1. Leylinin anası qızının məhəbbətindən xəbər tutanda məktəbə getməsinə etiraz etmir.
2. Leylinin atası qızını Məcnuna verməyə onun eşq sevdasından əl çəkməsi şərtilə razıdır.
3. Zeyd Məcnunu eşq sevdasından çəkindirməyə çalışır.
4. Məcnunun atası oğluna yardım etməyə çalışır.
5. Nofəl Leylinin atası ilə döyüşə girir.

A) 2, 4, 5.

B) 1, 3.

C) 1, 4.

D) 1, 2, 5.

(1) **25. İ. Şıxlının “Namərd gülləsi” əsərinin tədrisi zamanı Kərəm obrazını səciyyələndirərkən hansı fikirdən istifadə etmək mümkündür?**

A) Əməlləri camaatın qınağına səbəb olur.

B) Ehtiyacı olanlara ev-eşik qurmağa kömək edir.

C) Haqq-ədaləti bərpa etməyə çalışır.

D) Kənd camaatı ilə üzləşməkdən ehtiyat edir.

(1) **26. Ə. Haqverdiyevin “Bomba” əsərində Kərbəlayı Zal obrazını səciyyələndirərkən hansı fikirdən istifadə etmək mümkün *deyil?***

1. Qulluqda qalmaq üçün pristavın etimadını qazanmaq istəyir.
2. Arvadının tövsiyələrinə uyğun hərəkət edir.
3. Qocalanda dövlət təminatından bəhrələnmək niyyətindədir.
4. Rüşvət aldığını gizlətmək üçün dəridən-qabıqdan çıxır.
5. Öz işindən zövq alır.

A) 2, 4.

B) 3, 4.

C) 1, 3, 5.

D) 1, 2, 5.

(1) **27. A. İldırımın "Əsir Azərbaycanım" şeirinin təhlili zamanı lirik qəhrəmanla bağlı hansı fikirləri şagirdə söyləmək mümkündür?**

1. Harayının doğma yurda çatması üçün təbiətdən kömək umur.
2. Doğma torpağın bəxtsizliyindən şikayət edir.
3. Müqəddəs yerlərdə yaşasa da, vətəndən müqəddəs yer tanımadığını deyir.
4. Yaşadığı sürgün həyatının onu əyə bilməyəcəyini söyləyir.
5. Vətənsiz həyatın ağrı-acısını dilə gətirir.

A) 2, 4.

B) 1, 3.

C) 1, 4.

D) 1, 5.

(1) **28. Şagird soruşdu:** *“Aldanmış kəvakib” (Mirzə Fətəli Axundzadə) povestində nə üçün məhz Yusif Sərracı hakimiyyət başına gətirmişdilər?”*

*Müəllim şagirdin sualını necə cavablandıra bilər?*

A) Saray əyanları başa düşdülər ki, dövlətin Yusif Sərracın islahatlarına ehtiyacı var.

B) Bu yolla guya həm Şah Abbas ulduzların fəlakətindən, həm də “təhlükəli” bir adamdan qurtulurdu.

C) Şah Abbas dövləti idarə etməyi bacarmamışdı və onu ağıllı bir adamla – Yusif Sərracla əvəz etmək istəyirdilər.

D) Saray əyanları düşünürdülər ki, ölkədəki hərc-mərcliyi yalnız nüfuzlu Yusif Sərrac aradan qaldıra bilər.

(1) **29. N. Gəncəvinin "Sultan Səncər və Qarı" və "İskəndərnamə" əsərlərinin tədrisi zamanı hansı uyğunluqdan istifadə etmək olar?**

1. Sultan Səncər *("Sultan Səncər və Qarı" əsərindən)*.
2. Dara *("İskəndərnamə" əsərindən)*.

a. Əməlləri rəiyyətin dili ilə ifşa olunur.

b. Ədalətli hökmdardır.

c. Hücum etdiyi ölkədən xərac almağa müvəffəq olur.

d. Müəllif onu "hindli quldur" kimi təqdim edir.

e. Müəllif mövqeyinə uyğun yaradılmış obrazdır.

A) 1 – a, d; 2 – c, e.

B) 1 – b, e; 2 – a.

C) 1 – a, d; 2 – c.

D) 1 – d, e; 2 – a, b.

(1) **30. C. Məmmədquluzadənin “Qurbanəli bəy” əsərində qaldırılmış hansı problemlər şagirdin diqqətinə çatdırılmalıdır?**

1. Yadelli ağaların Azərbaycan xalqının sərvətlərindən gen-bol faydalanması.
2. Xalqın kütləvi savadsızlığa məhkum edilməsi.
3. Varlı təbəqənin bəzi nümayəndələrinin yadellilər qarşısında simasızlaşması.
4. Yerli əhalinin ağaları əyləndirməyə məcbur edilməsi.
5. Hansı təbəqəyə aid olmasından asılı olmayaraq, qadınların hüquqsuz vəziyyəti.

A) 3, 4, 5.

B) 1, 5.

C) 1, 3, 4.

D) 2, 5.

(1) **31. M. Hadinin "Türkün nəğməsi" şeirində əksini tapmış hansı məsələləri şagirdə söyləmək mümkündür?**

1. Türk xalqlarının azadlıq mübarizəsi.

2. Məfkurə yolunda verilən itkilər.

3. Xalqın siyasi məqsədlər naminə qurban verilməsi.

4. Müharibənin gətirdiyi fəlakətlər.

5. Vətəndən uzaq düşənlərin ağrı-acısı.

A) 3, 4, 5.

B) 1, 2, 3.

C) 1, 2, 4.

D) 1, 2, 5.

(1) **32. “Salur Qazanın evinin yağmalandığı boy” un (“Kitabi-Dədə Qorqud”) tədrisi zamanı Uruzla bağlı hansı fikri söyləmək mümkündür?**

*Uruz:*

A) yaralanır, yarasını ana südü və dağ çiçəyi ilə sağaldırlar.

B) ov zamanı düşmənə əsir düşür.

C) yoldaşları dara düşəndə onların köməyinə çatır.

D) yurda, qərargaha keşikçi təyin edilir.

(1) **33. S. Vurğunun “Vaqif” dramının tədrisi zamanı Vaqif obrazı ilə bağlı hansı fikirlərdən istifadə etmək mümkündür?**

1. Aşağı təbəqədən olan insanlarla da dostluq edir.
2. Həyat yoldaşını anlamaqda çətinlik çəkir.
3. Düşündüklərini hökmdara açıq şəkildə söyləməkdən çəkinmir.
4. Ölkənin müdafiəsini təşkil edə bilmədiyi üçün xalq ondan incikdir.
5. Qacar ondakı əyilməzliyə heyrət edir.
6. Həyat yoldaşı onu xilas etmək üçün hər cür fədakarlığa hazırdır.

A) 2, 3, 4.

B) 2, 3, 5, 6.

C) 1, 3, 5.

D) 1, 4, 5, 6.

(1) **34. C. Cabbarlının "Oqtay Eloğlu" əsərinin tədrisi zamanı Oqtay obrazı ilə bağlı hansı fikirlərdən istifadə etmək doğru olar?**

1. Teatrın bu günü üçün çalışmağı yetərli hesab edir.
2. Xalq üçün ailəsindən belə keçməyə hazırdır.
3. Sənət yoldaşlarının bacarıqsızlığından bədbinliyə düşür.
4. Ona təklif edilən gəlirli mövqedən imtina edir.
5. Əmisinin onun nişanlısını başqasına verməsindən sarsılır.

A) 1, 4, 5.

B) 2, 4.

C) 2, 3.

D) 1, 2, 3.

(1) **35. S. Ə. Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" şeirinin tədrisi zamanı şagirdə əsərlə bağlı hansı fikirləri söyləmək olmaz?**

1. Məsnəvi şəklində, əruzun həzəc bəhrindədir.
2. Şair müsəlmanların dərdinin başlıca səbəbini elmsizlikdə görür.
3. Şair baş alıb gedən nadanlığa görə tərəqqi edən millətlərin töhmətini də xatırladır.
4. Bu avam xalqın içində bir nəfər də olsun qanan adam tapmaq mümkün deyil.
5. Əsərdə kompozisiyanın bütün elementlərindən istifadə edilmişdir.

A) 2, 3, 4.

B) 3, 4, 5.

C) 1, 3, 4.

D) 1, 4, 5.

## BƏDİİ MƏTNİN DƏRK EDLMƏSİ (15 BAL)

**Ənvər Məmmədxanlının *"Baş xiyabanda"* əsərindən bir parçanı diqqətlə oxuyun:**

Başım ağrıdan çatlayırdı. Köynəyimin cibindən ağ bir həbin ancaq bir qəlpəsini tapdım ki, onu da udmaq üçün stolun üstündəki qrafində su yoxdur.

Bu qürbət şəhərdə hərbi xidmətdə olan bir neçə yoldaşla bərabər yaşadığımız evdə su yoxdu, qonşuluqdakı dəbdəbəli imarətin həyətindəki su kranından xahişlə  aldığımız suyu içirdik.

İkinci mərtəbədəki otağımdan qaranlıq həyətə düşdüm, həyətin ortasında kiçik bir hovuz vardı, səhərlər o hovuzdan götürdüyümüz su ilə əl-üzümüzü yuyurduq. Hovuzdakı su donmuşdu, yumruğumla buzu sındırdım, cibimdə ilişib qalmış həb qəlpəsini uddum, üstündən bir ovuc buzlu su içdim.

Geri döndüm, otağıma qalxdım, var-gəl eləməyə başladım ki, ağrı bir az səngisin, sonra təzədən yıxılıb yatım. Ancaq kiçik bir həb qəlpəsinin ağrıya dişi bata bilməmişdi.

Geyindim, qaranlıq dəhlizdən küçəyə çıxdım. Axşamdan qar yağmışdı, sonra şaxta bərkimişdi, qaranlıq küçədə ins-cins yoxdu.

Bu şəhər yalnız baş xiyabandakı bir əczaxanasını bütün gecəni səhərə kimi açıq saxlayırdı ki, indi gecənin bu aləmində mən ora – baş xiyabana, səhərə kimi açıq olan əczaxanaya doğru gedirdim...

Baş xiyaban gecənin bu gec saatlarında həmişəki kimi yenə çıraqban idi, amma başqa vaxt gecəyarıdan sonra da burada dolaşan baxışları çağırışlı bədbəxt kölgələr indi bu şaxtalı gecədə yox olmuşdu və hər axşam burada sızıldayan, ağlayan divar dibləri də artıq susmuşdu və boşalmışdı.

| |
|---|
| Gündüzlər şəhərin digər məhəllələrində və örtülü bazarında sədəqə üçün uzanan əlləri boş qalan dilənçilərin bir çoxu axşamlar çox tez kimsəsizləşən digər küçələrdən bura – gündüzlər dilənməkləri mümkün olmayan baş xiyabana doğru yönəlirdilər, ayaqyalın, başıaçıq uşaqlar, cındır çit çadralı qadınlar, çiyni mitil yorğanlı qocalar burada, divar diblərində düzülüb otururdular və bu divar dibləri, xüsusilə soyuq qış gecələri yüz ağızlı fəryadla şəhərin baş xiyabanındakı izdihamından mərhəmət diləyirdi. |

İndi isə şaxtalı bir gecənin bu aləmində baş xiyabanında ins-cins qalmamışdı, şəhərin dilənçi uşaqlarından kiçik bir oğlanın ilişib burada, baş xiyabanda qalması çox təəccüblü idi.

Və şəhərin sahibsiz, sərsəri, ac itlərindən böyük bir sürü o uşağı mühasirəyə almışdı.

Ayaq saxladım, uşaq sürü içində fırlanırdı, sağa dönürdü, sola dönürdü və əlindəki çörəkdən qopartdığı tikələrdən sürüdəki ac itlərin hərəsinə bir pay düşməsinə cəhd edirdi. İkinci bir çörəyi isə uşaq sol qolu altında bərk-bərk qoltuğuna sıxmışdı.

Düşünmək olardı ki, kimsəsiz bir uşaq çörəyə möhtac olduğu kimi bir parça qarşılıqlı şəfqətə də möhtacdır və yəqin, mehrini özü kimi hər yerdən qovulan, ac qalan, soyuqdan titrəyən bu sərsəri itlərə salmışdır.

Əczaxanaya çatmışdım, içəri girdim.

Nevraljin tez təsir elədi, ağrının dişi sınmışdı. Aptekçi ilə xudahafizləşib yenidən baş xiyabana çıxdım.

Şaxtalı külək baş xiyabanda itlərə çörək paylayan o uşağı qabağına salıb hara isə qovurdu. Uşaq ayaqyalın və başıaçıqdı, gah yorturdu, gah dayanıb arxasınca salıb apardığı itləri səsləyirdi və indi qoltuğundakı ikinci çörək də yox olmuşdu, sürüdəki itlərin sayı isə bir az da çoxalmışdı.

Yenə düşünmək olardı ki, bu səxavətlə ki uşaq bu gün diləndiyini bu ac itlərə paylamışdı, özünə heç bir şey saxlamamışdı, sabah sədəqə üçün açılan əli boş qalardısa (və belə günləri az olmurdu və az olmayacaqdı), onda bu it sürüsünə mehribanlığı uşağa çox baha tamam ola bilərdi.

Və bu zaman uşaq birdən yox oldu.

Bu nə sirr idi?

Bir an tərəddüd elədim, sonra dəhlizə girdim. İçəri çox kiçik bir elektrik lampası ilə işıqlanmışdı və əvvəlcə dəhlizdə nə uşağı gördüm, nə it sürüsünü. Birdən pilləkən qanadının arxasından gələn bir hənirti diqqətimi cəlb elədi, irəli getdim, pilləkən qanadının arxasına keçdim, gördüyüm mənzərədən qəlbim göynədi.

Sürünün bütün itləri burada idi, sıxılmışdılar bir-birinə, biçimsiz bir kütlə halında yerə döşənmişdilər və o uşaq da bu sürünün ortasında yumaq kimi bükülmüşdü, dizlərini qucaqlamışdı, böyrü üstə yıxılıb yatmışdı.

Və sirr bundan ibarətmiş ki, bu şaxtalı qış gecələrində soyuqdan donmamaq və isti bir bucaq tapıb yatmaq üçün uşaq boğazından kəsərək gündüz diləndiyini bu sürüyə paylayırmış və əlbəttə ki, səhər tezdən şəhər hələ oyanmamış yenə bu sürünü dalına salıb baş xiyabandan uzaqlaşacaqdı...

Şəhər isə sabah yenə baş xiyabanı davranışı getdikcə müasirləşən bir izdihamla dolduracaqdı, baş xiyabanda yerləşən bir çox kinoteatrların əlvan afişalarındakı çılpaq qadınlarla, hər iki əlindəki tapançadan atəş açan bədheybət quldurlarla və ağzından od püskürən əjdahalarla tamaşaçı çağıran Qərb filmlərini bütün günü və gecəni nümayiş etdirəcəkdi, musiqili, nəğməli restoranlarını müştərilərlə dolduracaqdı və bu şaxtalı gecədə sərsəri itlərlə qucaqlaşıb yatan o kiçik övladına bir gün ağlamağı yalnız bundan ibarət olacaqdı ki, parlaq gecə işıqları altında baş xiyabanda dilənən bəzi dilənçilər kimi o uşağa da əl açıb sədəqə aldığı vaxt fransızca “mersi” deyə təşəkkür etməyi öyrədəcəkdi...

**Təlimat**

**Tapşırığı yerinə yetirmək üçün mətni diqqətlə oxuyun. Suallara mətnin məzmunu tamamilə aydın olduqdan sonra cavab verməyə başlayın.**

**Verilmiş cavablardan yalnız birini seçin və cavablar vərəqinin müvafiq xanasında – X işarəsi qeyd edin.**

(1) **36. Çərçivəyə alınmış hissədə hansı bədii təsvir vasitələrindən istifadə edilmişdir?**

A) Metafor, simvol.

B) Epitet, təşbeh.

C) Epitet, metonimiya.

D) Metafor, təşbeh.

(1) **37. Mətnin düzgün plan ardıcıllığını müəyyən edin.**

1. Yemlənən ac itlər.
2. İtlərin uşağı təqib etməsi.
3. Baş xiyabanın gündüz həyatı.
4. Yoxsulluğun hökm sürdüyü küçələr.
5. Binanın içərisindəki mənzərə.

A) 3, 4, 5, 2, 1.

B) 2, 4, 3, 5, 1.

C) 1, 3, 5, 4, 2.

D) 4, 1, 2, 5, 3.

(1) **38. Əsərdə qarşılaşdırılır:**

1. zənginlik – səfalət.
2. cəhalət – açıqfikirlilik.
3. mərhəmət – biganəik.
4. lovğalıq – təvazökarlıq.

A) 2, 3.

B) 1, 4.

C) 1, 3.

D) 2, 4.

(1) **39. Əsərə əsasən doğru fikirləri müəyyən edin.**

1. Təhkiyə əsasında yazılmışdır.
2. Tərənnümə əsaslanır.
3. I şəxsin nəqletməsində təqdim edilir.
4. Subyektiv düşüncələrin məhsuludur.
5. Süjeti çoxşaxəlidir.

A) 2, 3, 5.

B) 1, 4, 5.

C) 1, 3.

D) 2, 4.

(1) **40. Dilənçi oğlan haqqında *yanlış* fikirləri müəyyən edin.**

1. Yaşamaq üçün heyvanların dostluğunu qazanmağa möhtacdır.
2. Heyvanlarla münasibətdə onu heç bir təhlükə gözləmir.
3. Bir parça çörək qazanmaq üçün gecə-gündüz işləməyə məcburdur.
4. İtlərlə münasibəti qarşılıqlı faydalanmaya əsaslanır.

A) 2, 3.

B) 1, 4.

C) 1, 3.

D) 2, 4.

(1) **41. Əsərin məzmunu ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Baş xiyabanda gecə-gündüz dilənçi əlindən tərpənmək olmur.
2. Səhiyyə sisteminin fəaliyyəti mövcuddur.
3. Varlılar Qərb dəyərlərinə uyğun həyat tərzi keçirirlər.
4. Varlılar uşaqların sədəqə üçün açılan əllərini boş qoymurdular.
5. Ölkədə başqa yerdən gəlmə hərbi qulluqçular da var.

A) 2, 3, 5.

B) 1, 2, 4.

C) 1, 3, 5.

D) 2, 3, 4.

(1) **42. Altından xətt çəkilmiş hissədə hansı fikir ifadə *olunmur?***

A) Yuxarı təbəqə arasına fransızca danışmaq dəbdədir.

B) Haqqında danışılan uşaq tək dilənçi deyil.

C) Dilənçi uşaqlar yad dildə sərbəst danışırlar.

D) Dilənçilər sədəqə almaq üçün nəzakətli olmağa məcburdurlar.

(1) **43. Hansı fikri hadisəni nəql edən şəxsə aid etmək *olmaz?***

1. Vətəni tərk etmək məcburiyyətində qalmışdır.
2. Tanımadığı uşağın vəziyyətinə biganə qala bilmir.
3. Dilənçi oğlanı xilas edir.
4. Daima qarşılaşdığı sağlıq problemi var.
5. Yuxarı təbəqənin nümayəndəsidir.

A) 2, 3, 5.

B) 1, 4, 5.

C) 1, 3.

D) 2, 4.

(1) **44. Müəllif əsasən hansı problemə diqqəti cəlb etmək istəyir?**

A) Varlıların vicdansız davranışlarına.

B) Uşaqların çarəsiz vəziyyətinə.

C) Ana dilinin məhv olmasına.

D) Şəhərin su probleminə.

(1) **45. Cəmiyyətdəki qeyri-bərabərlik özünü nədə göstərir?**

1. Su problemində.
2. Kücələr arasındakı fərqlərdə.
3. Hərbi vəziyyətin mövcud olmasında.
4. Səhiyyə sisteminin yarıtmazlığında.
5. İnsanların həyatında.

A) 2, 3, 5.

B) 1, 2, 5.

C) 1, 3.

D) 2, 4.

(5) **46. Dilənçi oğlanla bağlı hadisəni təsvir etməkdə müəllifin əsas qayəsi nədir?**

*Nəzərə alın: 50 sözdən az olan cavab yoxlanılmayacaq!*